# Naftalanda ilk dəfə Adəmalması ağacının əkilməsinə başlanılmışdır

Naftalan buraya gələn minlərlə turist üçün təkcə özünün unikal tərkibə malik nefti ilə deyil, həm də quru və sağlam mikroiqlimi ilə şəfaverici xüsusiyyətə malikdir.



Naftalanın bu cür iqlimini formalaşdıran amil isə vaxtilə bu kurort şəhərində əkilmiş minlərlə şam ağacıdır. Hazırda dünya miqyasında baş verən qlobal iqlim dəyişmələri səbəbindən Naftalanda şəhər landşaftının formalaşdırılmasında, əsasən, yerli şəraitə uyğunlaşan və bol oksigen hasil edən ağacların əkilməsinə üstünlük verilir.

Bu baxımdan beynəlxalq sağlamlıq mərkəzi olan Naftalanda yaşıllıqların salınması artıq ənənə halını almışdır. Son üç ayda şəhərin Heydər Əliyev, Nəriman Nərimanov və Qələbə parklarında, eləcə də prospekt və yol kənarlarında 3200-dən artıq ağac əkilmişdir. Aksiyalarda, əsasən, kedra, zeytun, akasiya, çinar, kiparis ağaclarının əkilməsinə üstünlük verilmişdir.

Bu yaxınlarda isə şəhərdə Adəmalması ağaclarının əkilməsinə başlanılmışdır. Qeyd edək ki, Vətəni Avropa qitəsi olan Adəmalması tutkimilər fəsiləsinə aiddir. Yaşıl, yumru meyvələri və enli yarpaqları olan Adəmalması bol oksigen hasil etməsinə görə ən faydalı ağac hesab edilir.

***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 13 dekabr.- S.10.